

***"Azərbaycan" qəzetinin 288-ci nömrəsinin 1-ci səhifəsi***





**Cümə axşamı, 2 oktyabr 1919-cu il, nömrə 288**

# AZƏRBAYCAN

*Gündəlik siyasi, ictimai, ədəbi, iqtisadi türk qəzetəsidir*

**İkinci səneyi-dəvamiyyəsi. Pəncşənbə, 7 məhərrəmül-haram sənə 1338. 2 təşrini-əvvəl 1919 sənə.**

**Türk və islamlığa müfid məqalələrə səhifələrimiz açıqdır. Dərc olunmayan övraq iadə edilməz. Dərc edilən məqalatın mükafatını idarə təyin edir. Məhəlli-idarə: Bakı, Vorontsovski və Qubernski küçələrin küncündə 4 nömrəli evdə "Azərbaycan" idarəsi. Telefon nömrə 39-60. Tək nüsxəsi 2 manat 50 q.**

**Abunə şəraiti: Qeyri şəhərlər üçün 1 aylığı 70 rublə, 2 aylığı 130 rublə, 3 aylığı 180 rublə. Bakı üçün 1 aylığı 60 rublə, 2 aylığı 110 rublə, 3 aylığı 150 rublə. Abunə şəraiti ancaq həmin sənə yanvar ayının 1-nədək heasb olunur.**

**Elan fiatı: birinci səhifədə sətri 8 rublə, axırıncı səhifədə sətri 6 rublə, itən şeylər və yer axtaranlar üçün 4 rublə axırıncı səhifədə, 6 rublə birinci səhifədə.**

## SİRK "MODERN"

Pəncşənbə günü oktyabrın 2-ndə 1919-cu ildə bu gün Naməlumun benefisidir.

Bu gün Naməlum öz böyük gücünü göstərəcək.

Bu gün Naməlum öz umuzlarında böyük bir taxta saxlayacaq və bu taxtanın üstündə altı yerli avtomobil sürəcəklər və axırda böyük türk pəhləvanı Gənc Əli ilə əzmkar mübarizəyə çıxacaq.

Bu gün 3 cift pəhləvan mübarizə edir.

1-nci: Gənc Əli – Naməlum.

2-nci: Jan-de-Kolon – Arnold.

3-ncü: Yemelyanov – Student.

Pəhləvanların çıxışı və mübarizənin başlanması saat 11-in yarısında. Tamaşa başlanacaq 8-də, qurtaracaq 12-də. Mübarizə Yelizarovun təhti-nəzarətində [nəzarəti altında] olacaqdır.

*11422*

## ELAN

1919 sənə oktyabrın 2-də pəncşənbə [cümə axşamı] günü gündüz saat 11-də Azərbaycan Məclisi-Məbusan iclası olacağı elan olunur.

*T-275*

## QİSMİ-RƏSMİ
## [RƏSMİ HİSSƏ]

### Bakı Hərbiyyə general-qubernatorluğuna əmr

13 sentyabr 1919

Bakı şəhəri

Nömrə 1

Dövləti Tədafö [Dövlət Müdafiə] Komitəsinin həmin sənə sentyabrın 13-ü tarixli qətnaməsi mövcibincə [qətnaməsinə əsasən] mən bugünkü tarixdən Bakı hərbi general-qubernatoru vəzifəsini ifa etməyə başlayıram. Bakı qradonaçalstvası da həmin general-qubernatorluğa daxil olur.

Bu cür məsuliyyətli vəzifə mənə tapşırılan zaman hökumət tərəfindən mənə göstərilən etimad və ümidi həqiqətə çıxmaqdan ötrü mən bütün var qüvvəmi ədalətli və bitərəfanə bir surətdə işə sərf etməyə və mənə tapşırılan rayonun mənafeyi, asayiş və nizamı mühafizəsinə və vətəndaşlarının asudə olmalarına çalışacağam.

Buna nail olmaqdan ötrü:

1) Mənim məqsədim Bakı hərbi general-qubernatorluğunda cinayəti məhv etməkdir.

2) General-qubernatorluqda yaşayan vətəndaşlara, dövlətin nəşvü-nümasına [inkişafına], xüsusi və ümumi işlərdə geniş bir surətdə müavinət göstərməkdir.

3) Hər bir vətəndaş bilafərqi-millət və məzhəb [millət və məzhəb fərqi olmadan] öz mənafeyində məni bitərəf və ciddi mühafizəkarı görə biləcəyinə əmin ola bilər o vaxta kimi ki, onun mənafeyi dövlət mənafeyinə zidd olmamış olsun.

4) Ümum vətəndaşları özləri üçün, həm də ictimai işlərdə asudə və səmərəli işləməyə dəvət edirəm.

Tacirlərdən, iş sahiblərindən xahiş edirəm ki, geniş fəaliyyətə başlayıb xatirlərində saxlasınlar ki, mən onların məsuniyyəti-şəxsiyyə və mülkiyyələri [şəxsiyyətlərinin və əmlaklarının toxunulmazlığı] müdafiəsində olacağam.

5) Əmələlərdən [fəhlələrdən] xahiş edirəm işə başlayıb əmin olsunlar ki, onların iqtisadi əhvalını və məsuniyyəti-şəxsiyyələrini [şəxsiyyətlərinin toxunulmazlığını] hər cür mənə mümkün olan vəsilələrlə mühafizə edəcəyəm.

6) Gənc Azərbaycan Cümhuriyyətinin asayişini və dövlət tərzi-idarəsini xələldar edənlərə [pozanlara] qanun üzrə mənə vagüzar edilən [tapşırılan] dairədə hərbi general-qubernator kimi amansız müharibə elan edirəm.

7) Başqa yerdən gəlmiş, paytaxtda hərc-mərclik vücuda gətirməyə və asayişi pozmağa çalışan məsuliyyətsiz adamlara təklif edirəm ki, bilatəxir [dərhal] Bakı hərbi general-qubernatorluğunu tərk etsinlər. Bunu da xəbər verirəm ki, onlara aman yoxdur. Hökumətin isə Azərbaycan Cümhuriyyətini müdafiə və asayişi saxlamaq üçün qüvvəsi kifayət qədərindən artıqdır.

Vətəndaşlardan rica edirəm yadlarında saxlasınlar ki, mən Azərbaycan Cümhuriyyətinin abadlığını həyatımdan məqsəd ədd [hesab] edib, bunu xələldar edənlərə isə aman olmayacaqdır.

*Hərbi general-qubernator*
*general-mayor Tlexas*

**Türüq və Məabir Nəzarəti [Nəqliyyat və Rabitə Nazirliyi]**

Azərbaycan Dəmiryolları İdarəsindən mühafizə xidmətinə təəllüq [aid] əmrnamə

Nömrə 127

22 eylül 1919

Azərbaycan Cümhuriyyəti qoşunu Ərkani-hərb naçalnikinin [Hərbi qərargah rəisinin] 3945 nömrəli təmiminə [ümumi bildirişinə] görə, əsgəri fərarilər sivil [mülki] əlbisə geyərək dəmiryollarla qaçırlar. Bütün uçastok naçalniklərinə əmr edirəm ki, mövqif [stansiya] komandanları iştirakı ilə dəmiryollarla gedən əsgər yaşında sivillərin vəsiqələrini müayinə edərək tövqif ed[il]ənləri [saxlananları] Əxzi-Əsgər [Hərbi Çağırış] İdarəsinə göndərsinlər.

*İmza etdilər:*
*Yollar naçalniki və mövqif dəmiryollar general-qubernatoru*
*mühəndis T[eymur bəy] M[əlik]Aslanov*
*Mühafizə naçalniki əvəzinə*
*[Osman] Mirzəbəyov*
*Əslinə mütabiqdir: Kargüzar (imza)*

## MÜHÜM MƏSƏLƏ

Keçən səfər Parlamanın Sosialist fraksiyası təklif etdi ki, Parlamanın gələn növbəti iclasında (yəni bu gün) yer və torpaq məsələsi ruznameyi-müzakiratda [müzakirə gündəliyində] birinci sıraya qoyulsun.

Sosialistlərin intizarı xaricində olaraq "Müsavat" və sair fraksiyalar dəxi bu təklifə razı olmaqla, təklif əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul edildi.

Yer və torpaq məsələsi mühüm bir məsələdir. Qədim romalıların "patriç" və "plebey"lərini andıran, bu günə qədər əhalini biri mümtaz [imtiyazlı] və digəri qeyri-mümtaz olmaq üzrə iki sinfə ayıran "bəy" və "rəiyyət" kəlmələri, zatən yer və torpağın qeyri-mütəsavi [qeyri-bərabər] bir surətdə bölünməsini və ədalətdən kənar tərzi-təməllükünü [yiyələnilməsini] ifham edən [bildirən] sözlərdir.

Yer və torpaq məsələsi Yevropa sosioloji alimlərinin çoxdan bəri fikrini məşğul edən ictimai bir məsələdir ki, bilaxirə [axırda] siyasi firqələrin proqramına dəxi daxil edilib, bunun həlli və çarəsi haqqında hər firqənin xüsusi bir nəzəri vardır.

Əvvəlcə ixtilaf əsas üzərində idi. Yəni yeri bərabər olmaq üçün bir çoxlarının xüsusi malikiyyətlərinə əl vurmaq və malik olduğu yeri əlindən almaq caizdirmi və ya deyilmi məsələsi üstündə ixtilaf vardı. Lakin bu günə qədər davam edən inqilablar nəticəsi olaraq bu ixtilaf həman aradan götürülüb, bu gün bütün demokratik firqələrin cümləsi yer və torpağın bərabərcəsinə bölünməsi tərəfdarıdırlar və arada bir ixtilaf varsa o da "bədəllə" və "bədəlsiz" sözünün üzərindədir. Bəzilər deyirlər ki, yeri özgələr arasında təqsim edilmək [paylaşdırılmaq] üçün əlindən alınan şəxsə bu maddi ziyan və zərər əvəzində bədəl vermək lazımdır. Digərləri isə, məsələn, sosialist firqələri bədəlsizliyi iltizam edirlər [lazım bilirlər].

Azərbaycan Cümhuriyyətində mövcud olan siyasi firqələrin – istər sosialist, istər qeyri-sosialist – yer və torpaq proqramı əsl və əsas etibarilə həman birbirinin eyni olub, füruatında [xırdalıqlarında] mövcud olan ixtilafları da bu firqələr arasında münaqişə sala biləcək mahiyyətdə qəliz deyildir.

Bundan aşkardır ki, yer və torpaq məsələsi Azərbaycan Cümhuriyyətində "bərabər təqsim" [bərabər bölünmə] əsası ilə həll edilib, bu xüsusdakı siyasətimiz və hökumət tərəfindən sadir olacaq [veriləcək] qanun və qaydalar da bu əsasa müvafiqət edəcəkdir [uyğun olacaqdır].

Bir çoxları var ki, yer və torpaq məsələsinin bu yollu həlli məmləkətimizdə bir çoxlarının, baxüsus [xüsusilə] bəy və xan sinfinin narazılığını mövcib olub da anarşi törətməsinə səbəb ola bilər, deyə əndişələrə düşürlər. Böylələri də yox deyil ki, zatən məmləkətimizdə anarşi törətmək və bunun sayəsində xüsusi məqsədlərini yeritmək üçün yer və torpaq məsələsinə bir vasiteyi-iğtişaş ümidi ilə baxırlar.

Fəqət Azərbaycan dövlətinin bugünkü yer və torpaq işləri, yəni "aqrariya" haləti sair məmləkətlərə nisbətən öylə bir kəskin vəziyyətdə deyil ki, birincilərin əndişəsinə və ikincilərin ümidinə məhəl [yer] verilmiş olsun. İş bundadır ki, bu məsələ üzərində bizdə "sinif mübarizəsi" əmələ gələ bilməz. Çünki bizdə "bəy və xan" sinfi yer və torpaq və malikiyyəti cəhətincə "rəiyyət" qismindən bir o qədər mafövq [üstün] deyildir. Bu saat biz-

lərdə bəylər və xanlar var ki, yalnız bir quru addan başqa heç bir şeyə malik deyildirlər. Bunlar Haqverdili cənablarının məşhur "Dağılan tifaq"ında ustadanə bir surətdə təsvir edilən səbəblər nəticəsi olaraq hər nə mal və mülkləri varmışsa hamısını satmaq və başqa bir yol ilə əldən buraxmaq məcburiyyətində bulunub, var-yoxdan çıxıbdırlar. Digər tərəfdən, "rəiyyət" denilən adamlar vardır ki, böyük yerlərə, mal və mülkə malik olub, rus təbiri ilə "kulak" adlanan böylə bir sinif təşkil edəcək dərəcədə mahiyyəti-ədədiyyələri [sayca əhəmiyyətləri] vardır. Xırda kəndçilərin dəxi hər kəsin özünə məxsus az-çox yeri olub və ancaq bunlardan bir paraları alati-ziraiyyə [əkinçilik alətləri] və işçi heyvanatdan məhrum olduqlarına görə özgələrə – istər bəy olsun, istər "kulak" olsun – rəncbərlik edib bu yol ilə imrari-həyat edirlər [güzəran keçirirlər].

Əlavə, yer bölünmək işinə gəldikdə vətənimizdə rusdan qalma bir çox münbit və qeyri-münbit yer dəxi o qədərdir ki, yer məsələsi həll edildikdən sonra hər kəsin, hər ziraətçinin böyük vüsətdə yeri olacaq. Narazı qalan olsa da yalnız artıqtamahlıq saiqəsi [səbəbi] ilə baş verə biləcəkdir.

Bu üzdən ümid etməlidir ki, bizdə aqrariya islahatı feilən həyatımıza tətbiq edilərkən azarsız bir surətdə keçib, heç bir şuluqluğa və sair bu kimi vəqələr ehdasına [hadisələr meydana gəlməsinə] məhəl [yer] qalmayacaqdır.

"Aqrariya" əhvalımızın kəskin deniləcək qədər bir cəhəti varsa, o da yalnız bir su məsələsidir ki, indiyə qədər ziraətçilər [əkinçilər] arasında istər bəy, istər qeyri-bəy hər nə münaqişə olmuşsa, yalnız bu məsələ üzərində vaqe ola gəlmişdir. Əgər su xüsusi malikiyyət təhtindən [altından] azad edilib də ümumun istifadəsinə verilmək üçün dövlət malı olarsa, məsələ, zənn edirik ki, bununla bitmiş hesab olunar.

Hər halda, yer və torpaq məsələsi, mövcud olan xüsusi malikiyyət tərzi-idarəsini aradan götürməklə arada böyük bir ictimai təhəvvül [dəyişiklik] və başqa bir idarə əmələ gətirəcəyindən, mühüm bir məsələdir! Böylə olan surətdə bu mühüm məsələni Parlamanımız heç bir hazırlıqlara girişmədən həll edə bilərmi? Yaxşı olmazmı ki, bu vacib məsələni camaat tərəfindən vəkalət və ixtiyarı bugünkü Parlamandan daha artıq və daha geniş olan Məclisi-Müəssisan həll etsin?

*Hacıbəyli Üzeyir*

## AZƏRBAYCAN MƏCLİSİ-MƏBUSANINDA

### 29 eylül [sentyabr] iclası

*(mabəd)*

**Ağamalıoğlu Səməd ağa** (Hümmət) - Əhməd Cövdətin fikrinə iştirak edərək deyir ki: Azərbaycanın oxumuş adamlara ehtiyacı çoxdur. Binaənileyh [ona görə], darülfünunun [universitetin] qapısını hamının üzərinə açmaq lazımdır və bundan qorxmamalıdır. Çünki oraya ancaq hazırlığı olan adamlar gələcəklərdir, gəldikdən sonra davam etməyi bacarmayanlar isə dərhal özləri gedəcəklərdir. Amma darülfünun qapısı açıq buraxılmadığı təqdirdə işlər axsayacaqdır.

**Aşurov** - Cövdətin də, Malxazovun da rəylərini əsaslı hesab edir, fəqət həqiqəti bu ikisinin arasında görür. Fəqət heç birisinin təklifinə qəti surətdə razı olmayaraq, qanunun eyni surətdə qalmasını təkliflə deyir ki:

Ancaq biz arzu edə bilərik ki, Darülfünun Komissiyası Nəzarət [Nazirlik] və hökumətin iştirakı ilə şimdiki qanun mövcibincə [qanuna əsasən] darülfünuna girə bilməyən, lakin girmələri münasib və lazım görülən zəvatın [şəxslərin] daxil ola bilmələrini təshil [asanlaşdırmaq] haqqında bir məruzə (?) təqdim etsin.

**Malxazov** - Əhməd Cövdətin və ümumiyyətlə açıq qapı tərəfdarlarının təkliflərinə etirazla deyir ki:

Burada çox təkid edirlər ki, ikmali-təhsil [təhsili bitirmək] haqqında şəhadətnaməsi olmayanlar ancaq bu il qəbul edilsinlər. Mən bilməyirəm, nə üçün onlar böylə güman edirlər ki, Azərbaycan darülfünununun birinci kursu, yaxud ilk məzunları savadsız olmalıdır?! Biləks [əksinə], məncə ilk kurs və ilk məzunlarının ən yaxşı, ən parlaq olmasına çalışmalıdır ki, darülfünun[un] hazırlığa malik və həyata müstəid [istedadlı] adamlar buraxmağa qabil olduğu isbat olunsun.

**Hacınski Mehdi bəy** (məruzəçi, Müsavat) - Ümumiyyətlə darülfünuna ancaq tədris ediləcək ülum və fünunu [elmləri və fənləri] dərk edəcək dərəcə hazırlığı olanların qəbulu lazım olduğunu qeydlə deyir ki:

Komissiyada bu məsələ müzakirə olunan zaman mən realnı məktəblərin 6-cı və zükur [oğlan] edadiyyələrinin 7-ci sinfindən qurtaranların darülfünuna qəbul edilmələrini müdafiə edirdim. Şimdi yenə həman təklifimdə israr edirəm.

4-cü fəsil səsə qoyulduqda qabaqca təklif rəyə vəz edilərək [səsə qoyularaq], Əhməd Cövdətin təklifi 4 qismə təqsim edilir [bölünür]:

1) Darülfününun birinci sənəsi, Azərbaycan təbəələrindən edadiyyənin 7 və realnının 6-cı sinfini ikmal etmiş mütəəllimlər [şagirdlər] dəxi tam hüquqa malik olmaq üzrə darülfünuna qəbul edilsinlər.

Təklifin bu qismi əksəriyyəti-ara [səs çoxluğu] ilə qəbul olunur.

2) Zükur edadiyyələrinin 6-cı sinfini bitirmiş olanlara da eyni hüquq verilsin.

Təklifin bu qismi əksəriyyəti-ara ilə rədd edilir.

3) Sabiq Aleksandrin (Tağıyev) qız məktəbi nəzdində pedaqoji kurslarını qurtarmış Azərbaycan təbəəsi xanım əfəndilərə də eyni hüquq verilsin.

Təklifin bu qismi rəyə vəz edildikdə, əksəriyyəti-ara ilə rədd edilir.

4) Darülmüəllimin bitirmiş müəllim əfəndilərə (Aleksandrovski Müəllimlər İnstitutu da buraya daxildir) təyin olunmuş xüsusi elmlərdən imtahan vermək şərti ilə eyni hüquq verilsin.

Əksəriyyəti-ara ilə təklifin bu qismi də qəbul olunur.

4-cü fəsil əlavə və təshihlərlə [düzəlişlərlə] bərabər qəbul olunur.

5-ci fəsil səsə qoyulduqda kvorum olmadığından 5 dəqiqə tənəffüs elan edilir.

**Tənəffüsdən sonra**

Darülfünun nizamnaməsinin 5-ci fəsli bilaetiraz [etirazsız] qəbul olunur.

**Bəxşiş, mükafat və rüşvət**

Bədəhu [sonra] bəxşiş, mükafat və rüşvət almaq cəzasının təqviyəsi [artırılması] haqqındakı qanun layihəsinin 3-cü qiraətinə keçilərək, ümum maddələri və qanun tamamilə bilaetiraz qəbul olunur.

**Üsyan və hökumət əsaslarına qarşı cinayət**

Növbədə üsyan və hökumət əsaslarına qarşı cinayət işləyənlər xüsusundakı cəza qanunlarının təğyir və təbdili [dəyişdirilməsi] haqqında qanun layihəsidir. Məruzəçi Rüstəmbəyli Şəfi bəy.

**Rüstəmbəyli Şəfi bəy** - Sabiq Rusiya hökuməti tərəfindən verilmiş və Seym tərəfindən təsdiq edilmiş olan qanunlar, necə ki, məlumunuzdur, Məclisi-Məbusanın qərarına görə bizdə dəxi davam edir. Fəqət şimdi bir çox qanunlar var ki, artıq lüzumsuz olmuşdur, yainki bizim həyatımız şəraitinə uyğun deyildir. Ona görə böylə qanunlar ləğv, yainki təbdil və təğyir edilməlidirlər. O cümlədən olaraq, bəzi siyasi hərəkətlər müqabilinə cəza qanunları var idi. Məsələn Rusiyada padşahlıq olan zaman padşaha, yainki xanədan əzasına [üzvünə] sui-qəsd və yaxud dövlət əsası və sair müqabilinə sui-niyyətə qarşı böyük cəza qanunları var idi. İndi bizdə padşahlıq olmadığından, padşah və xanədan əzasına qarşı işlənən cinayətlər də olammaz.

Amma həman qanunun 100, 101, 103 və 121-ci maddələrini bir qədər dəyişdirərək baqi saxlamalıdır. Sabiqdə çar və ailəsi əzasına sui-qəsd müqabilinə olan cəza maddələrini şimdi dövlət əsası, hökumət üzvləri, Rəisi-vükəla [Baş nazir] və Parlaman rəisi haqqında tətbiq etməlidir. Sonra 103-cü maddəni üsuli-idarə və əsasi-dövlət əleyhinə sui-qəsd kimi cinayətlər müqabilinə tətbiq etməlidir. Eyni qanunun 124, 127, 129, 132, 134, 173-cü maddələri hökumət idarəsini dəyişmək, üsyan qaldırmaq və sairə kimi sui-niyyətlə təbliğat icra etmək, mətbuat vasitəsilə təhrikat və təşviqatda bulunmaq, böylə sui-qəsd ilə təşkilat təsis etmək müqabilinə tətbiq olunar. Bu maddələrdən 134-cüsü üsuli-idarədən razı olmayıb dəyişmək fikrində olanlar müqabilindədir.

Komissiya bunun saxlanmasına razı olmadı. Çünki bu iş siyasi hürriyyətə aiddir. Bu gün maddə qalarsa, hürriyyəti pozmuş olarız.

Əgər bir adam bu fikirdə olub fikrini mətbuat ya təbliğat vasitəsilə başqalarına da təbliğ edəcək olarsa, əlbəttə onun müqabilinə başqa yol ilə mübarizə etmək olar. Lakin cümhuriyyət əsası ilə idarə olunan bir məmləkətdə hürriyyəti-kəlam, mətbuat və ictimaya [söz, mətbuat və yığışmaq hüququna] riayət edilməlidir və onların müqabilinə cəza təyin etmək olmaz.

Bir də 129-cu maddənin 2-ci fəslində hökumət və Parlaman əleyhinə sui-niyyət müqabilinə cəzadan bəhs olunur. Malxazov komissiyada bu maddənin qaldırılmasını tələb etdi, komissiya razı olmadı.

Sosialist və Əhrar fraksiyaları nümayəndələri qanunla ətraflı aşna olmadıqlarını qeydlə, müzakirəsinin təxirini tələb edirlər.

Müsavat nümayəndəsi fraksiya namından [adından] müzakirənin gələcək iclasa qədər təxirinə etiraz olmadığını bəyan edir.





Təxir haqqındakı təklif bilaetiraz [etirazsız] qəbul olunur.

**Əsgəri vergi**

Nəhayət, əsgərlikdən azad olunanlardan alınan verginin ləğvi haqqındakı layiheyi-qanuniyyənin müzakirəsinə keçilir.

**Rüstəmbəyli Şəfi bəy** (məruzəçi) - Sabiq Rusiya hökuməti zamanında əsgərlikdən azad olunanlardan 28 manatdan 200 manata qədər (mədaxilə görə) naloq [vergi] alınırdı. Əvvəla bütün rəiyyətlərin mədaxilini təyin etmək, ona görə də vergi almaq mümkün olmayırdı. Saniyən [ikincisi] də təcrübə göstərdi ki, bu naloq çox mədaxilsiz bir şeydir. Buna binaən [buna görə], 1917-ci ildə Rusiya hökuməti o xüsusdakı qanunu ləğv etdi və əmrnamə verdi.

Fəqət qarışıqlıq düşüb həman əmrnamə Qafqaziyaya yetişmədi və binaənileyh [ona görə], burada tətbiq edilmədi. Bir məqama gəlmişdi ki, hətta o naloq öz məxaricini ödəməyirdi. Həm də qayda pək də köhnəlmişdir. Doğrudur, əsgərlikdən azad olunanların hökumətə, dövlətə başqa bir təriq [yol] ilə xeyir və mənfəət vermələri bəlkə lazımdır da. Amma rus hökumətinin o qanunu artıq davam edəmməz. Binaənileyh, Maliyyə naziri bu qanunun ləğvini lazım bilərək, bu xüsusda bir qanun layihəsi tərtib vermişdir. Bundan əlavə, köhnə Rusiya naloqlarından 29 min manata qədər qalıq (nedoimka) var. Onu da yığmaq həm çox müşküldür, həm də heç xərcini ödəməz. Ona görə, həman qalığın da götürülməsi təklif olunur. Parlaman komissiyası bu layihəni bilaetiraz qəbul etmişdir. Məclisi-Məbusandan dəxi qəbulunu rica edir.

Qanun layihəsi birinci və ikinci qiraətdə bilaetiraz qəbul edilərək, 3-cü qiraəti nizamnamə mövcibincə [nizamnaməyə əsasən] gələn iclasa qalır.

Nəhayət, Sultanməcid Qənizadə növbədən xaric söz alaraq deyir ki, hazırda Darülfünunun ticarət məktəbi və gimnaziya binalarından ibarət iki binası var ki, lazım olan təmiratının böyük məxarici var. Digər tərəfdən, keçən il Hacı Zeynalabdin Tağıyev cənabları mərhum oğlunun mərasimi-dəfnində özünə məxsus pasajını türk darülfününuna xidmət etmək üçün millətə bağışladığını xəbər vermişlərdi. Şimdi vaxt yetişmiş, Bakıda darülfünun açılmışdır. Binaənileyh, təklif edirəm Parlaman bir komissiya seçib Hacı cənablarının hüzuruna göndərərək, vədlərinə vəfa qılmasını təklif etsin.

İclas bununla qapanır.

**TELEQRAF XƏBƏRLƏRİ**

*(Azərbaycan radio mövqifi tərəfindən qəbul edilmişdir)*

**Cəbhələrdə**

Hacı-Tərxan səmtində düşmən süvariləri Hacı-Tərxanın 30 verst qərbində hücum etmək istəmişlərsə də, dəf edilmişlərdir.

Kizlyar tərəfdə Hacı-Tərxanın 100 verst cənub-qərbində Olenoviç mövqeyi işğal edilmişdir. Düşmən cənuba çəkilməkdədir.

Uralsk səmtində düşmən Uralskın 45 verst cənub-qərbində hücum etmək istəmişsə də, böyük tələfatla geri atılmışdır. Düşməndən 12 pulemyot alınmışdır.

Uralskın 25 verst cənub-şərqində düşmən inadlı hücum etmişsə də, geri qaytarılmışdır. Eyni zamanda düşmən İlutsk şəhərinin 20-25 verst cənub-qərbində hücuma keçib böyük tələfatla geri atılmışdır.

**Tsaritsında tətil**

Tsaritsından Saratova gələnlər xəbər verirlər ki, Denikin ordusu komandanlığı bolşeviklərin Tsaritsına yaxınlaşmağına görə müharibəyə yarar adamların hamısını əsgərliyə dəvət etmişdir. Bütün əmələlər [fəhlələr] əsgərlikdən imtina edib, ümumi tətil elan etmişlərdir. Həmkarlar ittifaqı və kooperativlər Denikin komandanlığı tərəfindən qapadılmışdır.

**Denikin əhvalı**

Borisoqlebskdan xəbər verirlər ki, Denikin ordusu əsgərləri əsgərlikdən qaçmaq-dadırlar. Alaylarda 150-200 adam qalmışdır. Əsgərlikdən qaçanlar məhkəmeyi-hərbiyyəyə verilib bir çoxları güllələnirlər.

**Kəndlilər Kolçak əleyhinə**

İşim rayonunda Vaqay çayı yaxınlığında bir neçə kənd əhalisi Kolçak əleyhinə üsyan qaldırmışdır. Kəndlilər Qırmızı ordu əsgərlərinə qarışıb Kolçak əleyhinə mübarizəyə başlamışlar.

**Şuşadan**

*(Rəsmi)*

Qarabağda asayiş tam bərpa edilmişdir. Axır zamanlar beynəlmiləl bir hadisə baş verməmişdir. Yarın əhali ehtiyacatı ilə aşna olmaq və ətrafda hökumət idarələri təşkil etmək üçün Xaçın ətrafına şura üzvləri doktor Yaramışev və [Qara bəy] Qarabəyov, Vərəndə mahalına Balasanov və Sultanov, Dizaq mahalına da Vartapetov və [Əliəkbər] Şahsüvarov əzimət edəcəklərdir.

**Denikin arxasında**

Saratov "Kubanski kray" qəzetəsi xəbər verir ki, ləvazimati-hərbiyyə hazırlayan Yekaterinodar zavodları tətili əqəbincə [ardınca], dəmiryol əmələləri də ümumi tətil elan edərək iş vaxtının azalmasını və maaşlarının artırılmasını tələb etmədədirlər. Tixoretsk mövqifi [stansiyası] ətrafında Denikin ordusu əsgərləri içində intizamsızlıq vücuda çıxmış, əsgərlər vətənlərinə göndərilmələrini tələb etmişlərdir. Üsyançı əsgəri qitəatlar [hərbi hissələr] tərksilah edilərək Armavirə göndərilmişlərdir.

**Almaniyada**

Ali Şuranın aldığı məlumata görə, [Rüdiger fon der] Qolts ordusu 50 min kişini baliğdir [nəfərə çatır]. Onun yarım milyonluq bir ordu cəm etməyə müvəffəq olacağından əndişəyə düşmüşlərdir. Almaniya hökuməti dəfələrcə izhar etmişdir ki, Latviyanı təxliyəyə Qoltsu məcbur etmədən acizdir. Almaniya hökumətinin bu bəyanatına Sülh Konfransı dairələrində inanırlar. Almaniya hökumətinin vəziyyəti mətin olmadığı üçün əsgəri dairələrə qarşı tədbir ittixaz etmədən [tədbir görməkdən] ehtiyat edir.

**Fon der Qolts Cəmiyyəti-Əqvamdan güclüdür**

[Rüdiger] fon der Qolts ordusunun tərksilah edilməməsi fəqərəsi [faktı] müxalif dairələrin Cəmiyyəti-Əqvamı [Millətlər Cəmiyyətini] təzir [məzəmmət] etmələri üçün böyük bir dəlil olmuşdur. Onlar deyirlər ki, Cəmiyyəti-Əqvam Fransanı müdafiədən aciz qalıb, fon der Qolts ondan güclü olmuşdur.





**Almaniyada tətil**

Simens zavodlarında işlər qət edilmişdir [kəsilmişdir]. 240 min əmələ [fəhlə], maşinistlər tətil etdiyindən işləri qət etməyə məcbur olmuşlardır.

**Rusiya-Almaniya münasibatı**

Cenevə [Cenevrə] - "D. L." qəzetəsi xəbər verir ki, Almaniya Kurlanda [Latviya] qoşunlarının intibahnaməsi [bəyannaməsi] Almaniya ordu naçalniklərinin və rus zabitlərinin təhriki ilə buraxılmışdır. Bu rus zabitləri çoxdan bəri Almaniya ilə ittifaq əqd etmək [bağlamaq] fikrindədirlər. Rus zabitanının başında knyaz Liven durmuşdur. Onlar istəyirlər ki, əqd edəcəkləri ittifaqlarla Rus-Almaniya orduları vəziyyətini yaxşılaşdırıb daxili siyasətlərinə də icrayi-nüfuz edərək monarxizmi bərhəyat etsinlər [dirçəltsinlər].

**İngiltərədə dəmiryol tətili**

Lion - İngiltərədə dəmiryol tətili gecə saat 12-də başlanacaqdır. Lloyd Corc və müavinləri tətili bərtərəf etmək [aradan qaldırmaq] üçün nə qədər çalışmışlarsa da bir nəticəyə müncər olmamışdır [nəticə əldə edilməmişdir].

**Klemansonun nitqi**

Klemanso Məclisi-Məbusan cələsəsində [iclasında] söyləmişdir ki, Versay müahidənaməsinin [Versal sazişinin] imzası, hərgah Cəmahiri-Müttəfiqə [Birləşmiş Ştatlar] imzalanmış müahidədən imtina edərsə, Fransaya nə kimi təminat verər, sualına bir cavabi-şafi [qənaətbəxş cavab] verəmməyir.

Klemansonun nitqi öz tərəfdarlarını da məyus edib, müarizlərinin [müxaliflərinin] mövqeyini daha da bərkitmişdir. Ona görə də Məclisi-Məbusan cələsəsi səşənbə [çərşənbə axşamı] gününədək təxir edilmişdir.

## QƏZETƏLƏRDƏN

**Zaqafqaziya cümhuriyyətləri haqqında**

"P." qəzetəsi yazır:

İstanbuldan alınan məlumata görə, neçə gün bundan əqdəm [qabaq] İngiltərənin Avamlar Kamerası cənbində [nəzdində] olan Xarici İşlər Komissiyası tərəfindən Zaqafqaziya cümhuriyyətləri məsələsi müzakirə edilmişdir. Həmin məsələ İngiltərənin İranı təhti-himayəsinə [himayəsi altına] alması ilə əlaqədardır.

Komissiya üzvlərinin bir çoxu bu rəydə olmuşlardır ki, İngiltərənin İran siyasəti Zaqafqaziyadakı xətti-hərəkətin müəyyən edilməsini tələb edir.

İrandakı vəziyyəti-siyasiyyənin bir daha mətin bir hala salınması icab etdiyindən [lazım gəldiyindən], Zaqafqaziya cümhuriyyətləri qəbul edilməklə bərabər Avropa dövlətləri sırasına daxil və bununla İngiltərənin İrandakı mövqeyi daha da möhkəm edilməlidir.

Bundan əlavə, Rusiyanın indiki vəziyyəti-siyasiyyəsi qeyri-müəyyən və gələcəyi dəxi bir çox çətin və ixtilaflı mə-

sələlərlə mərbut [bağlı] olub da rus üsuli-idarəsinin əsaslı olmadığından, Zaqafqaziya cümhuriyyətlərini ondan ayırmaqla bərabər, Avropa dövlətləri cərgəsinə daxil etmək lazım gəlir.

**İngilislər Batumda qalırlar**

Batumdakı İngiltərə Komandanlığı qəzetələr vasitəsilə məlum etmişdir ki, İngiltərə qoşunları daha bir neçə vaxt Batumda qalacaqlardır. Batum general-qubernatorunun binagüzarlığına [sərəncamına] görə, şəhərdə və mahalda Donskoy pulların [Don pullarının] məcburi olaraq qəbul edilməsi ümumi əhaliyə elam edilmişdir [bildirilmişdir].

**Moskvada Gürcüstan heyətinin tövqifi**

Tiflisdə alınan məlumata görə, Moskvada Gürcüstan heyəti konsul Xundadze başda olmaq üzrə İcraiyyə Komitəsi binagüzarlığı [sərəncamı] ilə tövqif [saxlanmış] və həbs edilmişdir.

Heyətin tövqif edilməsinə, neçə vaxt bundan əqdəm [qabaq] Qafqaziyada Voyenno-Qruzinski yolda gürcülər tərəfindən bir neçə bolşevikin tövqifi səbəb olmuşdur. Bolşeviklər, heyəti rəhn olaraq tövqif edib saxlamışlardır.

**İstefa**

Gürcüstan Təchizat Şurası sədri N. K. Xumrili istefa etmişdir.

**Annunsio Fiume haqqında**

Roma - Fiume məsələsi italyanların arzularına müvafiq surətdə həll edilmədiyinə görə, Annunsio gizli könüllü dəstələri təşkil edərək Fiumeyə daxil olmuş və müvəqqəti İtaliya hökuməti təsis etmişdir. İtaliya hökuməti Annunsionun bu hərəkətindən narazı qalaraq əski qaydanı bərpa etmək üçün Fiumeyə general Badolyonu göndərmişdir, lakin general bir şey edəmməmişdir.

**Hərbi ittifaq**

Helsinqforsdan [Helsinkidən] xəbər verirlər ki, Estoniya, Litva, Ukrayna və Latviya arasında Stokholmda başlanmış olan müzakirat həmin yeni hökumətlər arasında hərbi ittifaq yapılması ilə nəticəpəzir olmuşdur [nəticələnmişdir]. Amerikada yaşayan Estoniya, Litva, latış və ukraynalılar həmin millətlərin ümumi mənafeyini müdafiə etmək üzrə bir cəmiyyət təşkil etmişlərdir. Həmin cəmiyyət nümayəndələri Parisdə mister Polk tərəfindən hüzura qəbul edilmişlərdir. Məzkur [adı çəkilən] Polk kiçik millətlərə hüsntəvəccöhü olduğunu izhar etmişdir [bildirmişdir]. Nyu-Yorkda 5 mindən ziyadə adam Polşanın Qaliçya və Litvaya soxulması əleyhinə protesto olaraq böyük mitinq tərtib etmişlərdir. Senator Lodj və qeyriləri təbrik teleqrafları göndərmişlər.

## TÜRKİYƏDƏ

**Sultan ilə müsahibə**

Parisdən bildirildiyinə görə, "Jurnal de Deba" qəzetəsinin İstanbul müxbiri bu günlərdə Sultan Məhəmmədi-Sadis həzrətləri tərəfindən hüzura qəbul olunub, onunla müsahibədə bulunmuşdur. Müsahibə əsnasında Sultan həzrətləri buyurmuşlar ki, Türkiyənin Böyük Avropa müharibəsinə iştirak etməsinə bir neçə canilər və xainlər səbəb olmuşlardır. Türkiyə ümum cahan millətlərinə məlum edir ki, Türkiyə məmləkətində yaşamaqda olan millətlərə müsavi [bərabər] hüquq və təminat veriləcəkdir. Anadoluya gəldikdə, orada bir neçə şəxslər tərəfindən qoşun dəstələri təşkil edilir. Anadolunun əcnəbilər tərəfindən işğal edilməsinə mümaniət [maneçilik] göstərilməklə bərabər, Türkiyə hökuməti əleyhinə dəxi düşmənanə hərəkatda bulunurlar. Sultan ümid edir ki, tezliklə həmin asilər hökumətə təslim olub onun əmrlərinə itaət edəcəklərdir.

**Türkiyə Kabinəsinin istefası**

Trabzondan "Sədayi-millət" qəzetəsinə xəbər verirlər ki, İstanbuldan alınan məlumata görə, Türkiyə Kabinəsi istefa vermişdir.

## İRAN İŞLƏRİ

**Yenə Kiçik xan**

Erməni "Araç" qəzetəsi yazır:

Neçə vaxt bundan əqdəm [qabaq] İran hökuməti qoşunları tərəfindən məğlub və pərakəndə edilmiş olan Kiçik xan yenidən böyük bir dəstə cəm edərək hərəkata başlamışdır. Bu günlərdə onun dəstəsi ilə hökumət qoşunları arasında toqquşma vaqe və nəticədə hökumət qoşunları ricətə [geri çəkilməyə] məcbur olmuşlardır. Kiçik xanın dəstəsi bir neçə əsir dəxi almışdır.

Kiçik xan əsir aldığı kazakları tərksilah edərək onlara böyük mükafat və bəxşiş verdikdən sonra azad edir və bununla onların hüsn-rəğbətini kəndisinə cəlb edir. Kiçik xanın yenidən üsyana qalxışdığı İran hökumətini və İngiltərə səfarətini böyük əndişələrə və narahatlığa sövq etmişdir.

**İran-ingilis qoşunları**

İngiltərə ilə İran hökuməti arasında əqd olan müahidə mövcibincə [bağlanan sazişə əsasən] ingilislər İran yerli əhalisindən ibarət hər biri 13.000 nəfər olmaq üzrə 5 firqə [diviziya] qoşun təşkilinə şüru etmişlərdir [başlamışlar]. Həmin firqələrə müxtəlif silah və nizam üzrə olaraq qoşun dəstələri daxil olacaqdır.

## DAĞISTANDA QİYAM

**Qroznı ətrafında**

Tiflisdən alınan məlumata görə, dağıstanlılar üçüncü dəfə Qroznıya hücum edib müvəffəqiyyətsizliklə geri çəkilməyə məcbur olmuşlardır. Bu günlərdə dağıstanlılar yenidən Qroznıya hücum edərək Qroznı neft mədənləri dairəsini təhti-mühasirəyə [mühasirə altına] almışlardır.

General Erdeli Dabravol ərkani-hərb [hərbi qərargah] idarəsinə müraciətən, tezliklə külli miqdarda qüvvə göndərilməsini rica etmişdir. Mövsuq [etibarlı] mənbələrdən alınan məlumata görə, Dabravol ərkani-hərb idarəsi general Erdelinin Dağıstandakı hərəkat və fəaliyyətindən nəhayət dərəcə narazı olub, Dağıstan məsələsinin yenidən baxılmasını təhti-qərara almışdır. Deyirlər ki, Dağıstan məsələsi yenidən bir çox təbəddülata [dəyişikliyə] uğramaqla bəra-

bər, dağıstanlıların nəfinə [xeyrinə] həll ediləcəkdir.

* * *

Petrovskda general Şkuro süvari qolordusunun qitəatı təhəşşüd etmədədir [süvari korpusunun hissələri toplanmaqdadır]. General özü Kursk altında yüngül yaralandığı üçün məzunən [icazəli] gedəcəkdir. Əsgər daşıdığına görə, Qudermes ilə Qroznı arasında sərnişin qatarları hərəkatı münqəte olmuşdur [kəsilmişdir].

Axırıncı xəbərlərə görə, Qroznı ətrafında pişdarların müsadiməsi [avanqard dəstələrin toqquşması] davam etmədədir.

Bəhri-Xəzər donanması naçalnikliyinə kapitan Ryabinin təyin edilmişdir.

## VÜKƏLA ŞURASINDA [NAZİRLƏR KABİNETİNDƏ]

- Maliyyə nazirinin Bakı neftçilərinə borc vermək haqqındakı təqriri [rəsmi məktubu] nəticəsində bir para dəyişikliklərlə təsvibi [bəyənilməsi] təhti-qərara alınmışdır.

- Maliyyə nazirinin 1919-cu sənə üçün dövləti qiymətli kağızlar hazırlamaq üçün təqdim etdiyi smetası haqqındakı təqririndən sonra təsviblə, təsdiqdən ötrü Məclisi-Məbusana idxalı tapşırılması təhti-qərara alınmışdır.

- Post və Teleqraf nazirinin Bakı postaxanasının boşaldılması haqqındakı təqririndən sonra Post və Teleqraf Nəzarəti Ticarət və Sənaye, Dövləti Müfəttişlik və Maliyyə Nəzarətləri nümayəndələrindən mürəkkəb [ibarət] bir komisyona postaxanada qalmış malların açılması tapşırılması təhti-qərara alınmışdır.

- Maarif nazirinin kağız qiymətinin ləğv edilməsi haqqındakı təqririndən sonra məruzənin qəbulu təhti-qərara alınmışdır.

- Xariciyyə nazirinin Qars nahiyəsi müsəlmanları əhvalı haqqındakı təqriri nəticəsində qərara alınmışdır ki, Ümuri-Xeyriyyə və Nafiə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] əhvalı təhqiq üçün kəndi nümayəndəsini oraya göndərməsi tapşırılsın. Təhqiqatın nəticəsi yaxın Şərqdə Amerika müavinət komisyonuna təqdim edilməlidir.

- Rəisi-vükəlanın [Baş nazirin] İran hüdudunda sərhəddarlar [sərhədçilər] təşkilatı haqqındakı təqririndən sonra, Maliyyə nazirinə təcili surətdə sərhəddarlar təşkili tapşırılması təhti-qərara alınmışdır.

- Post və Teleqraf nazirinin telefon qiymətinin bahalaşdırılması haqqındakı təqriri nəticəsində, nazirə, Vükəla Şurasına xüsusi bir layihə təqdimi tapşırılması təhti-qərara alınmışdır.

## NƏZARƏTLƏRDƏ [NAZİRLİKLƏRDƏ]

Zaqatal quberniyasının Suvagil icmasının nümayəndələri Daxiliyyə Nəzarətinə bir istida [ərizə] verib məlum etmişlər ki, onlar dağlarda yaşadıqları üçün fəqət sürüçülüklə imrari-həyat edirdilər. Anarşi zamanı bütün sürüləri oğurlandığından aclığa məhkum olmuşlardır. Şimdi, bilməcbur, əkinçiliklə yaşamalıdırlar. Halbuki əraziləri yoxdur. Dağların ətəklərində isə bir çox məxsusi ərazilər vardır ki, sahibsiz qalaraq başqa köylülər ondan istifadə etməkdədirlər. Köylülər rica etmişlərdir ki, onlara ya icarə və yaxud məccani [pulsuz] olaraq o ərazidən hissə verilsin. Əks surətdə aclığa məhkum olacaqlardır.

## ERMƏNİLƏRİN NİZAMSIZLIĞI

Qarabağ general-qubernatoru X[osrov] b[əy] Sultanov Daxiliyyə nazirinə məlumat vermiş ki:

"Zəngəzur qəza qaimməqamının [qəza rəisinin] təqriratına [məktublarına] nəzərən, eylül ayı ibtidalarında [əvvəllərində] müsəlmanlara qarşı erməni çıxışları atidəki [aşağıdakı] qərar üzrə icra edilmişdir:

1) Eylülün 4-də sübh vaxtı bir çox miqdarda erməni müsəlləh əşqiyası [silahlı qulduru] Qurdqalağı qəryəsi [kəndi] üzərinə hücum edərək qadın, erkək və çocuqlardan 10 adam qətl etdikdən sonra əhalinin mülkünü talan etmişlərdir.

2) Eylülün əvvəlinci həftəsi içində Zəngəzur qəzasının 3-cü və 4-cü mahalının həmhüdud erməniləri bilafasilə [fasiləsiz olraq] müsəlmanlar ilə məskun qəryələrə hücum edirdilər. Böylə anlaşılır ki, ermənilər bizim qüvvəmizin təhəşşüd etdiyi [toplandığı] yerləri öyrənmək niyyəti ilə bu hücumları yaparaq, bizi qarşılamaq üçün hazırlıqlar görmək istəyirlər. Yetişən məlumata nəzərən, erməni qüvvələri hər tərəfdən Canan dərəsinə toplanaraq sövqülceyş [stratejik] əhəmiyyəti olan Qapazlı səngərlərinə qəflətən hücum etmək əməlindədirlər [niyyətindədirlər].

21 ağustosda axşamçağı Zeyvə erməniləri müsəlmanlara hücum edərək, Çardaxlı və Tarovı səngərlərindən müsəlmanları çıxarmışlar. Uzun atışmadan sonra müsəlmanların inadlı əks-hücumları sayəsində ermənilər yenə öz səngərlərinə çəkilməyə məcbur olmuşlardır. Bu atışma əsnasında Tarovı qəryəsi əhli Muxtar İldırım oğlu ağır surətdə yaralanmışdır.

2) 10 ağustosda Tarovı qəryəsində dayanmış qaraqollar üzərinə gecəleyin ermənilər hücum edərək çöllərdə yığılmış dərzləri yandırmaq istəmişlərdir. Yenə müsəlmanların qarşı atışları ilə ermənilər geri çəkilməyə məcbur edilmişlərdir.

3) Ucanis qəryəsi erməniləri öz qonşu erməniləri ilə birlikdə Saldaş qəryəsini talan etmək niyyəti ilə ağustosun 7-ci gecəsi böyük qüvvə ilə o ətrafa gəlirlər. Çöldə məhsullarını yığan 5 nəfər Saldaş əhli bunlara təsadüfən rast gəlcək, onlar üzərinə atəş açarlar. Nəticədə Salah Xanpirəli oğlu ağır surətdə yaralanar.

4) 16 ağustos sübh vaxtı Aqaraq, Ağavurt və Ucanis erməniləri müttəfiq qüvvə ilə üç tərəfdən Yeməzli və Birinci, İkinci Xoştab müsəlman qəryələrinə şiddətli hücum etmişlərdir. Atışma bütün gün davam etmiş və nəticədə ermənilərin hücumu dəf edilmişdir. Müdafiədə bulunan müsəlmanlar tərəfindən səngərlərin birində xalq milisi məmurlarından biri məqtul düşmüş [qətl edilmiş], bədənində yüzdən ziyadə yara olduğu kimi, başı da ermənilər tərəfindən kəsilərək qənimət olaraq aparılmışdır.

5) Səbzman qəryəsi qaçqınlarından Fərcan qəryəsində yaşayan Baxış Abbas oğlu talan edilmiş qəryəsinə baş çəkmək arzusu ilə yola düşmüş və yolda Hacıqurbanlı qəryəsi yanında Ucanis ermənilərinə rast gələrək onlar tərəfindən qətl edilmiş və tüfəngi ilə patrondaşı da alınmışdır.

6) Xoçamusaxlı qəryəsi əhli Seyid Mirim özünün talan edilmiş Əfqanlı kəndindəki evinə baxmaq üçün getdikdə erməni qaraqollarına rast gəlmiş və onlar tərəfindən atı ilə bərabər əsir alınaraq erməni kəndlərinə aparılmışdır.

7) Ağustos ayı ibtidalarında [əvvəllərində] Qafan mahalı erməniləri həmhüdud müsəlman qəryələrinə hücum edərək biçinçilər və heyvan saxlayan naxırçıları atəşə tutmuşlar və bununla müsəlmanları əks hərəkətə məcbur edərək güclü qüvvələrlə onlar üzərinə hücum etməyə bəhanə arayıb, qış hücumlarından salamat qurtara bilən müsəlman kəndlərini talan etmək istəmişlər. Bu hərəkat əsnasında müsəlmanlardan dörd məqtul və bir əsir düşmüş və bir çox heyvan atəşlə tələf edilmişdir."

## YENİ HÜRUFAT MƏSƏLƏSİ

### 2

*(Şahtaxtılı Məhəmməd ağaya cavab)*

Azərbaycan əfkari-ümumiyyəsini [ictimaiyyətini] işğal [məşğul] edən əlifbamızın təğyiri [dəyişdirilməsi] məsələsi haqqında "Azərbaycan" qəzetəsinin 271-ci sayında "Yeni hürufat məsələsi" sərlövhəli məqalədə bəyan etdiyim mülahizəmə cavab olaraq, Şahtaxtinski Məhəmməd ağa əfəndi 283 nömrəli "Azərbaycan"da mənə xüsusi bir məqalə ithaf etmişdir.

Milli həyatımızda böyük təbəddülat [dəyişiklik] törədəcək, həyat və məmat [ölüm] qədər əhəmiyyəti olan bu məsələ haqqında mətbuat sütunlarında mübahisə açmağı pək arzulayanlardanam. Zira bu vasitə ilə bir çox qaranlıqlar aydınlaşar, bir çox şübhələr rəf olar [aradan qaldırılar], istilahi-məxsusə ilə – "mübadileyi-əfkardan bariqeyi-həqiqət doğar" [necə deyərlər – fikirlərin toqquşmasından həqiqət şimşəyi doğular].

Fəqət mənə etiraz etmiş olan möhtərəm Məhəmməd ağa əfəndi ilə mübahisəmiz bir qədər ümumilikdən uzaq kimi olacaqdır. Zira hal-hazırda Məhəmməd ağa əfəndi bitərəf şəxs deyil, müəyyən bir proje təqdim etmiş "hürufatçılardan" biri, həm də Nəzarət Komisyonunda projesini qəbul etdirmiş olan bir mücəddiddir [yenilikçidir]. Ona görə "Azərbaycan"ın 283-cü sayında yazmış olduğu "İslahi-xəttə dair" məqaləsi cavabdan qabaq kəndi projesini müdafiədən ibarət bir çıxışdır. Fəqət yenə bu çıxışda müşahidə edilən bəzi nöqsanları təshih etməyə [düzəltməyə] həqiqət naminə məcburiyyət hiss ediriz.

Məhəmməd ağa Şahtaxtinski məni yeni əlifbaya zidd və düşmən kimi qələmə verir, ya vermək istəyir. Ona görə uzun-uzadıya tərəqqidən, təməddündən [mədəniləşməkdən], millətimizin hürufat cəhətcə axsaqlığından bəhs edib, mənə əlifbamızın dəyişməyə möhtac olduğunu isbat etmək istəyir. Vəhalonki [halbuki] məqaləmizdə hürufatın dəyişməyini rədd edən bir işarə də yoxdur. Orada aydın yazılır ki, "Məqsədim yeni hürufatın əleyhinə deyil. Hürufat qəbul edərkən onun texniki cəhətindən başqa milli və siyasi cəhətini də nəzərə almaqdır..."

Bununla da onu bəyan etmək istəyiriz ki, bu gün yeni əlifba təqdim edən əfəndilər ancaq aramızda mövcud olan hürufat çətinliyini rəf etməyi nəzərə almışlar və yeni əlifbanı pedaqojiyə qanunlarına müvafiq gəlmək şərti ilə təbdil edirlər [dəyişdirirlər]. Vəhalonki bu gün türk aləmində bu əsasdan başqa daha ayrı əsaslar və şərtlər təklif olunmaqdadır.

Ümumiyyətlə, türk aləmində hürufatın çətin olduğu etiraf olunur və təğyiri lazım görünməkdədir. Lakin yeni hürufat qəbul olunarkən biri Avropaya, digəri isə əski türk uyğurluğuna dartır. Hətta türkləşmək və türkcəni sadələşdirmək tərəfdarı olan möhtərəm Ziya Gökalp həzrətləri ərəb hürufatından ayrılmamağı təklif etməkdədir.

Bu kimi cərəyanlar Kazan, Ural və İstanbullarda böyük qüvvə təşkil etməkdə ikən və Məhəmməd ağa əfəndi əski türk hürufatını "İnşallah, Mirzəbala ağa və ya digərləri bu əlifbanı yenidən istemala vəz yolunda [istifadəyə qoymaq yolunda] sərfi-məsai edərlər [çalışarlar]" deyə arzulamaqla bərabər, yenə deyir ki:

*"Yeni əlifba çıxdığı kimi, islam millətlərinin hamısı eyni zamanda görəcək və fənalığından, qəbula şayan [layiq] olub-olmadığını eyni zamanda müzakirə etməyə fürsətləri olacaqdır. Zira yeni əlifba kəndisini ancaq mətbuat vasitəsilə göstərə bilər. Lihaza [buna görə], məsələn, Bakıda çıxan qəzetədə, Bakıda basılan risalədə dərc olunan təzə əlifba ən çoxusu bir aydan sonra islam paytaxtlarının hamısında görülmüş olacaqdır..."*

Ondan sonra məruzəçi əfəndi ümid edir ki, böylə ictimai müzakirədən sonra islam millətlərindən biri qəbul edərsə, gec, ya tez digərləri də qəbul edəcək. Çünki yaxşı həmişə pisi ortadan çıxarar. Vəhalonki Məhəmməd ağa əfəndi daha yuxarıda etiraf etdi ki, böylə məsələlərdə iki rəy vücuda gəlir: biri lehinə, digəri əleyhinə.

Mən bu həqiqətə istinadən deyirəm ki, ola bilər, islam millətlərinin bəzisində əleyhinə fikir cərəyanı qalib gələ, onda necə olar? Məruzəçi əfəndi nədən əmin olur ki, mütləqa lehinə fikir cərəyanı qalib gələcəkdir?

Ehtimal ilə böylə mühüm bir işə iqdam olunarmı [addım atılarmı]?

Biz bu işə görə ümumi milli türk qurultayı dəvətini təklif etmişdik. Məhəmməd ağa isə qurultay və ictima [yığıncaq] yerinə mətbuatı təklif edir.

Əvvəlcə Azərbaycan qəbul etməlidir, sonra da başqa millətlər bizə təqlidən yeni hürufatımızı qəbul edəcəklərmiş.

Burada Məhəmməd ağa ilə 14 ağustosda vaqe olan hürufat müzakirəsi ictimasında sosialist Ağaəli Qasımovun bəyan olan fikri çox yavuq gəlir. O vaxt Qasımov əfəndi də təklif edirdi ki, Azərbaycan heç kimə baxmayaraq, yalnız başına qəbul etməlidir. Sonra digərləri də bizdən alarlarmış. Çünki onun rəyincə, yeni şeylər ümumi deyil, əvvəlcə tək-tək fərdlər tərəfindən ixtira olunar, sonra başqaları arasında intişar tapar [yayılar].

O vaxt Qasımov əfəndiyə bəyan etdiyim etirazı burada da təkrar edəcəyəm.

Doğrudur, ixtira və icadlar ittifaqi [təsadüfi] olaraq ayrı-ayrı fərdlər tərəfindən icad olunur. Məsələn, bu gün gördüyümüz vaqonlar, paroxodlar, aeroplanlar və başqa bu kimi silah və alətlər tək-tək adamlar tərəfindən tapılıb, sonra bəşəriyyətcə qəbul edilmişdir. Fəqət kim etiraf etməz ki, aeroplanlar cürbəcür sistemdə, vaqonlar növbənöv üsulda, teleqraflar, paroxodlar getdikcə yeni və asan hallara salınıb işlənir.

Kim deyə bilər ki, bu gün Azərbaycanın qəbul etdiyi hürufatdan daha asanını farslar və ya ərəblər tapmayacaqdır? Madam ki, məsələ ancaq hürufatın asanlığındadır və siyasi, milli rabitə rol oynamayır, nə üçün bizdən sonrakı millətlər yapdıqları yeni asan hürufatı qəbul etməyib də, Azərbaycanın ixtirasını tətbiq etsinlər?

İstər Qasımov əfəndi, istər Şahtaxtılı cənabları məni ittihadi-islamçılıqda [islam birliyi tərəfdarı olmaqda] ittiham edirlər və hürufat ilə ittihad olmayacağı, ittihadın ancaq mənəvi olacağını öyrətmək istəyirlər.

Əvvəla, federasyon fikirli bir türkçü olmasaydım, Məhəmməd əfəndinin bu təklifinə razı olmazdım. Lakin nədən ötrü bilməyirəm, ittihadın hürufat ilə deyil, mənəviyyat ilə olacağını iddia edən məruzəçi məqaləsinin axırında:

“Əminəm ondan ki, rəqəmli xətt kəndini aləmi-islama qəbul etdirəcəyindən maəda [əlavə], islah olunmuş latın əlifbası vasitəsilə tövhidi-imlaya arzukeş olan [vahid imla arzulayan] Avropaya dəxi qəbul etdirib, bəni-növi-bəşərin yeganə və bimisl əlifbası olacaqdır” – deyə yeni əlifbasını bütün dünyaya qəbul etdirmək və bununla millətlər arasında imla birliyi (tövhidi-imla) yapmağı arzulayır.

Məhəmməd ağanın bu son fikri pək doğrudur. O cəhətə deyil ki, onun hürufatı qəbul olacaqdır, ya olunmalıdır. O cəhətə ki, imla və dil birliyi millətlərin birliyində böyük və həm də başlıca bir rol oynayır.

Bu gün türk, ərəb, fars biri-birlərinə nə qədər dini cəhətcə yavuqdursa, bir o qədər də hürufatlarının ümumu [ümumi olması] cəhətincə yek-digəri ilə mər-butdurlar [bir-birinə bağlıdırlar]. Vəhalonki qan, ruh, cinscə qardaş olan iki millət hürufat və din ayrılığı sayəsində biri-birini tanımaz hala gəlmişdir.

İman edərdim ki, “Şahtaxtılı Məhəmməd” imzası ilə meydani-mətbuata çıxmış məşhur Məhəmməd ağa Şahtaxtinski çox təcrübələr görmüş olduğundan, bu işdə də təcrübə ilə davranar və etiraf edər ki, mən hürufatın tazələşməsinə tərəfdaram, hətta bir sənə bundan qabaq, keçən ilin oktyabrında Tiflisdə nəşr olunan “Gələcək” nam [adlı] qəzetədə yeni hürufatın lazımlığı barəsində uzun məqalələrim dərc olunmuşdu.

Mənim söylədiyim hürufatın asanlığı deyil, onun törədəcəyi inqilab və təbəddülatdır.

Məhəmməd ağa mənim bu qorxuma “ixtilaf” rəngi verir vəhalonki mən ixtilaf olmamaq üçün, ümumi türklük və islamlıq birliyini qırmamaq üçün ehtiyat və etilaf [uzlaşma] ilə hərəkət etməyi təklif edirdim. Bizcə, yeni hürufatı islam millətləri mətbuat vasitəsilə deyil, ümumi mədəni qurultay vasitəsilə qəbul və tətbiq edə bilərlər.

*Məhəmmədzadə Mirzəbala*

## BAKI XƏBƏRLƏRİ

**Bələdiyyə İdarəsində**

* Bakı müstəhkəm [möhkəmləndirilmiş] dairəsinin hərbi general-qubernatoru şəhəri təmizləmək haqqındakı təliqəsinə [rəsmi məktubuna] cavabən Bələdiyyə İdarəsi xəbər vermişdir ki, şəhər səhiyyə arabalarının atları Şura hökuməti zamanında və şəhərin Türk ordusu tərəfindən mühasirəyə alınması zamanında əksərən həcz [müsadirə] edilərək aparılmışdı. Mabaqi [qalan] atlar da anarşi zamanı naməlum bədəfkarlar [cinayətkarlar] tərəfindən çalınmışdı. Sonra, Bələdiyyə İdarəsi böyük məbləğlər sərf edərək bir az at almışdır ki, şimdi çalışırlar.

Bələdiyyə İdarəsinin məlumatına görə, şimdi şəhəri təmizləmək işləri babət bir surətdə getməkdədir. Təbii ki, Bələdiyyə İdarəsi yenə də eyiləşdirilməsinə var qüvvəsi ilə çalışacaqdır.

Təliqənin sonunda Bələdiyyə İdarəsi qoşun hissələri olan yerlərin qoşunlar tərəfindən təmizlənməsi haqqında lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

* Bələdiyyə İdarəsinin Yalama mövqifində [stansiyasında] olan odunların daşınması üçün bir sənə də vaxt istəməsi istidasına [xahişinə] Ərazi Nəzarəti rəddicavab vermişdi.

Nəzarətin məlumatına görə, Bələdiyyə İdarəsi xidmətçilərinin sui-istemallarından naşi [sui-istifadələri səbəbindən] 4 sənədir ki, odunlar orada qalaraq xəzinəyə böyük zərər gətirmişdir.

Bələdiyyə İdarəsi ikinci dəfə müraciətlə məlum etmişdir ki, odunlar Bələdiyyə İdarəsinin ixtiyarına fəqət iki aydır ki, verilmişdir. Bələdiyyə İdarəsi rica etmişdir ki, heç olmazsa şimdi daşınmağa icazə verilsin. Əks surətdə qışda bir xəstəxanalardan maəda [başqa], əhali də ya odunsuz və yaxud möhtəkirlərlə möhtac qalacaqdırlar.

**Qarabağ general-qubernatoru**

Bu günlərdə Qarabağ general-qubernatoru Xosrov Paşa bəy Sultanov cənabları vəzifə işlərindən ötrü Bakıya varid olmuşdur [gəlmişdir].

**Məsumovun qətli ətrafında**

Necə ki, məlumdur, bir qaç gün əvvəl Petrovskdan gəlmiş “Feniks” nam bir vaporda bir milyonadək pul ilə İran tüccaranından [tacirlərindən] Məcid Məsumov müsəlləh [silahlı] vapora alınıb, sonra isə nasıl olmuşsa da qətl edilmişdi.

İran konsulu bundan naşi [ötrü] Xariciyyə Nəzarətinə müraciətən, canilərin həbs və cəzası ilə İran tacirlərinə edilmiş qətlin təsirini bərtərəf etmək [aradan qaldırmaq] mümkün olacağını qeyd və lazımi tədabir ittixazını [tədbirlər görülməsini] rica etmişdir.

**Əzl**

Bakı qubernatorunun əmri ilə Cavad qəzası qaimməqam [qəza rəisi] müavinləri Mirzəəliyev və Sultanov və sərhəd

bölüyü komandanı Malıyev mənsəblərinə müvafiq olmadıqlarından xidmətdən əzl edilmişlərdir [uzaqlaşdırılmışlar].

**Cəmiyyəti-Xeyriyyədə**

- Gəncəyə göndərmək üçün 5 nəfər İrəvan qaçqınını Cəmiyyəti-Xeyriyyə Ümuri-Xeyriyyə Nəzarətinə [Sosial Təminat Nazirliyinə] göndərmişdir.
- Hacı Səfiyyə Davud qızı (türk qadını) bikəs olub Cəmiyyəti-Xeyriyyəyə müraciət etməsinə cəhət, məzkurəni [adı çəkilən qadını] Cəmiyyət darüleytama [yetimxanaya] göndərmişdir.
- Tiflisə göndərilmək üçün 7 nəfər qaçqını Cəmiyyət Ümuri-Xeyriyyə Nəzarətinə göndərmişdir.
- Zülqərneyn Həsənov adında bir dağıstanlı qaçqını Cəmiyyəti-Xeyriyyə Dağıstana göndərmişdir.
- İskələ məntəqəsi pristavı eylülün 30-da gecə bulvarda Cəbrayıl Saleh oğlu adında bir nəfər Məşqətə [Maştağa] kəndli bir çocuq taparaq Cəmiyyəti-Xeyriyyəyə gətirmişdir. Cəmiyyət isə darüleytama göndərmişdir.

**Parlaman komisyonlarında**

Dövləti əmanət sandıqları [kassaları] haqqında Maliyyə Nəzarətindən Məclisi-Məbusanın Maliyyə-Büdcə komissiyasına bir qanun layihəsi varid [daxil] olaraq, bəzi təğyir və təbdil ilə [dəyişikliklərlə] qəbul edilmişdir.

**Ehtida**

Petroqradlı knyaz Yuri Şamxali-Tarkovski (rus zabiti) islam dinini qəbul edərək, oktyabrın əvvəlindən Məşixəti-İslamiyyə [Şeyxülislamlıq] İdarəsi tərəfindən ona Yunisxan Qəhrəmanxan oğlu Şamxalzadə (Şamxalski) adı ilə şəhadətnamə verilmişdir.

**Birjada**

Kerenski minlik 1.090 manat, 250-lik 1.040 və xırda faizsiz olmuşdur. Nikolay 500-lüyü 1.140 manat, 100-lüyü 300 manat və xırdası 80 manatdır. Gümüş manat 58 manat və xırda isə 26 manat olmuşdur. Osmanlı altun lirəsi 660 manat və kağız lirəsi 160 manatdır. Tiflis parası 35 manatdır.

## AZƏRBAYCAN DÖVLƏT BANKASININ RƏSMİ-GÜŞADI

Dün Azərbaycan Dövlət Bankasının mütəntən [təntənəli] bir surətdə rəsmi-güşadı [açılış mərasimi] olmuşdur.

Gündüz daha saat 11-də bankın rəsmi-güşadına mədüv bulunan [dəvət edilmiş] bəy əfəndilər, xanımlar, nazirlər, Məclisi-Məbusan üzvləri, xarici dövlət nümayəndələri, camaat xadimləri, məmurlar, zabitlər və sairə bankın böyük və möhtəşəm salonuna toplanmış idilər.

Bütün simalarda bir bəşarət [müjdəli xəbər] görülməkdə, hər kəs səmimiyyətlə bank xadimlərinə təbriklər etməkdə idi.

Bankın böyük və müzəyyən [bəzəkli] salonu milli bayraqlarla donadılmış, orta və kənarlarda süslü yemək masaları qonulmuş və lətif bir intizam ilə təşrif edənlər iskəmləleri [stulları] tutmuşlardı.

Saat 12-də Rəisi-vükəla [Baş nazir] Nəsib bəy Yusifbəyov cənabları təşrif etmişlər və rəsmi-güşad məclisi də açılmışdır.

Baş masaya Baş vəkil həzrətləri, şeyxülislam əfəndilər həzəratı, Məclisi-Məbusan rəisi, Hərbiyyə nazir vəkili, Maliyyə naziri, Ticarət, Məsai [Əmək] və Türüq və Məabir [Nəqliyyat və Rabitə] nazirləri oturmuşlardır.

Əvvəla, müfti Mustafa əfəndi Əfəndizadə cənabları tərəfindən bəliğ [təsirli, bəlağətli] bir dua oxunaraq bankın rəsmi-güşadını müsəlmanlar üçün bir xeyrül-fal [yaxşı əlamət]ədd [hesab] etmişlər. Sonra axund Molla Ağa Ağaəlizadə cənabları dəxi bir nitq irad edərək [nitq söyləyərək], "İslamiyyətdə röhbaniyyət [rahiblik, dünya işlərindən əl çəkmək] yoxdur" (Laruhbaniyyətə fid-din) hədisi-şərifinə görə, bütün ümməti-islamın ticarət və sənaət [sənaye] və sair ülumi-maddiyyə və dünyəviyyə ilə iştiğal etməyə [maddi və dünyəvi elmlərlə məşğul olmağa] dinən borclu olduqlarını və bu bankın dəxi ondan bir nümunə olduğunu söyləmişlərdir və alqışlanmışdır.

Bundan sonra Maliyyə naziri Əliağa Həsənov cənabları tərəfindən bank və bankın lüzum və əhəmiyyətinə dair müfəssəl məlumat vermiş və uzun nitqi ilə mədüvvinin [dəvət edilənlərin] nəzəri-təqdirini cəlb eyləmişdir.

Bundan sonra bank müdiri danışmışdır.

Sonra Baş vəkil Nəsib bəy əfəndi tərəfindən müxtəsər və müfid [faydalı] bir nitq söylənilərək, iqtisadiyyatın siyasiyyata olan təsir və nüfuzunu və iqtisadiyyatsız siyasiyyatın nə qədər zəif olacağını və bugünkü açılan bankın Azərbaycan həyati-siyasiyyəsindəki əhəmiyyətini izah eyləmişlərdir.

Bilxassə nitqindəki şu sözlər nəzəri-diqqəti cəlb eyləməkdə idi:

*"Bugünkü ticarət və iqtisadiyyatımız bir ehtikardan ibarət olması dövlət və millət nöqteyi-nəzəri ilə zərər olduğu halda, iştə böylə bir mali təşkilatın – bankanın açılması bizim gələcəyimizə və hali-hazır iqtisadiyyatımıza pək faydası olacağına ümid və imanım qəvidir [güclüdür]."*

Və nitqin axırında bankı güşad edənləri təbrik və fəaliyyətlərindən dolayı "Allah sizdən razı olsun" cümleyi-iltifatı ilə müqabilə etmişlərdir.

Nəsib bəy əfəndidən sonra Parlaman rəisi doktor Həsən bəy Ağayev cənabları da nitq [irad] etmişlər və Məclisi-Məbusan tərəfindən bankın rəsmi-güşadını və mütəşəbbislərini [təşəbbüskarlarını] təbrik eyləyib alqışlanmışlardır.

Sonra Hərbiyyə naziri vəkili Əliağa Şıxlinski cənabları maliyyə və iqtisadiyyatın hərbiyyədəki əhəmiyyət və ciddiyyətini isbat etmək üzrə iradi-nitq edib demişdir ki:

*"Napoleon müzəffəriyyət üçün üç şeyi tələb etmişdir: pul, pul, pul. Bu gün də o dahiyi-hərbin fikri hərbdə və həyati-əsgəriyyədə ən məşhur bir qayda və düsturdur. Dinimiz bizə "Utlubul-elmə minəl-məhdi iləl-ləhdi" buyurur ki, elmin də bu gün ən müsbət və aləmə hökm edəni pul çıxarmaq elmidir. İştə bu gündə biz Azərbaycan bankasına nail olmaqlığımız böylə bir müzəffəriyyətdir ki, bütün müsəlman xalqımızı məsud edə bilər."*

Möhtərəm Hərbiyyə naziri vəkili sürəkli alqışlarla sözünü bitirdikdən sonra

Rəsulzadə Məhəmməd Əmin cənabları söz söyləmişlərdir.

Məhəmməd Əmin cənabları Napoleonun kəlami-məşhurunu tövzih [izah] edib demişdir ki, pul, ancaq öylə bir pul ki, onun qiyməti olsun. Halbuki bizim pulumuzun qiyməti düşmüşdür. Buna çarə tapmaq lazımdır. Xalq çox kağız para ilə deyil, az para, fəqət qiymətli para ilə sərvətini artdırmalı və Cümhuriyyətimiz də böylə bir sərvətdən istifadə etməlidir.

Məhəmməd Əminin nitqləri alqışlanıb, sonra sıra ilə Neft Mədən[çi]ləri Cəmiyyəti tərəfindən, Tacirlər İttifaqı tərəfindən təbriklər edilmiş, Sultanməcid Qəniyev cənabları tərəfindən dəxi gözəl bir nitq söylənilmişdir.

Gürcüstan Cümhuriyyəti siyasi nümayəndəsi cənabları, İran konsulu həzrətləri tərəfindən dəxi təbriklər edilib, ən nəhayət, yenə şeyxülislam Mustafa əfəndi Əfəndizadə cənabları bəliğ və qayət istifadəli bir nitq irad edib alqışlanmışdır.

Bank müntəsib və məmurları [bankla əlaqədar olanlar və bank işçiləri] dəxi ayrıca nitqlər söyləmişlərdir.

Məclisdə şirniyyat və sairə ilə xəfif təamlar edilib saat 2-yə qədər davam etmiş, sonda Baş vəkil həzrətləri son bir məmnuniyyət bəyan edib, məclisin dağılmasını təklif eyləmişdir. Bu surətlə məclis qapanmışdır.

Bankın rəsmi-güşadında xəzinə dəxi ilk dəfə açılıb, Baş vəkil həzrətləri tərəfindən pul müayinə olunmuşdur.

Alınan məlumata görə, şimdiyə qədər hesabi-cari olaraq bankaya 33 milyon rublə daxil olmuşdur.

Banka mütəşəbbislərinə və Maliyyə Nəzarətinə biz də müvəffəqiyyətlər diləriz.

## “MÜSAVAT”DA

### Ticarət, Sənaye və Ərzaq Nəzarətindən

23 eylül tarixli 347 və 350 nömrəli müraciətnamənizə Ticarət, Sənaye və Ərzaq Nəzarəti zeyldəki [aşağıdakı] qərarla cavab vermişdir:

Hökumət[in] Ərzaq Nəzarətini ləğv etmək qərardadından sonra Nəzarət ərzaq alıb gətirmək və ya paylamaq vəzifəsindən sərf-nəzər etməkdədir. Bu vəzifəni sabiqdə olduğu kimi xüsusi adamlar və camaat təşkilatı etməlidir. Son zamanlarda Ticarət Nəzarəti anbarlarında ərzaq və başqa şeylər azalıb qurtardığından dolayı, Nəzarət nə Mərkəzi Ev Komitəsinə və nə kooperasiyalara bir şey buraxmamışdır. Şayəd fəhlələr əhaliyi-kasibənin ehtiyacını dəf etmək arzusunda isələr, bu vəzifəni, yəni ərzaq alıb paylamaq zəhmətini kəndi öhdələrinə almaq istəyirsələr, o vaxt istədikləri təqsimedici [paylayıcı] aparatları nə kimi bir əsas üzərinə və hankı yerlərdə və nə kimi bir üsul ilə təqsim etmələri haqqında Nəzarətə bəyanat vermələri xahiş olunur.

Hökumətin mədən dairələrində çörəkçi dükanları açması məsələsinə gəldikdə, bu iş hökumətin qərardadına müvafiq gəlmədiyi üçün Nəzarət bu kimi bir vəzifəni öhdəsinə almaqdan imtina edib, heç bir növlə ifa edəmməyəcəkdir. Bəlkə, bu məsələni fəhlələr əvvəlki məsələlər kimi kəndiləri həll edə bilərlər.

*Ticarət Nəzarəti İdarəsi müdiri:*
*A[bbasəli] Makinski*

### İclasi-ümumi

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Əmirhacıyan şöbəsi pəncşənbə [cümə axşamı] günü axşam saat 7 tamama oktyabrın 2-də olacaq ümumi iclasa cəmi üzvlərini dəvət edir.

Müzakirə olunacaq məsələ:

Bakı Komitəsinin yenidən seçkisi.

İclas ikinci dəfə dəvət olunduğu üçün hər bir halda qanunidir.

### İclasi-ümumi

Türk Ədəmi-Mərkəziyyət firqəsi “Müsavat”ın Suraxanı şöbəsi çaharşənbə günü oktyabr ayının 1-də saat 4 tamamda olacaq ümumi iclasa cəmi rayonda olan üzvlərini dəvət edir.

Müzakirə olan məsələ:

Bakı Komitəsinin yenidən intixab olmasıdır [seçilməsidir].

Seçki ikinci dəfə olması üçün nə qədər üzv olsa, qanunidir.

### Təshih

Keçən nömrələrimizin birisində “Müsavat”ın Suraxanı şöbəsinin üzvü [Rəsulzadə] Damənəli əfəndinin “Müsavat” firqəsinin üzvlüyündən kənar edilməsini xəbər vermişdik. Firqə bu xəbərin səhv olmasına binaən [görə], təshih edilməsini [düzəldilməsini] rica etmişdir.

* Əmin Sultan oğlu Bakı darülfününuna daxil olmaq niyyəti ilə Tağıyevin fabrikindən xidmətini buraxıb darülfününa ərizə vermişdi. Lakin sinninin ədəmi-müsaidəsi həsəbi ilə [yaşı icazə vermədiyindən], darülfününa qəbul olunmadığından “Müsavat”a müraciətlə fabrikada əski xidmətinə qəbul edilməsini rica etmişdir.

### Sabunçuda

“Müsavat”ın Sabunçu şöbəsinin üzvü Hüseyn Məhəmmədzadə Sabunçu polis xəfiyyə nəfəratından Nəcəf Ələkbər oğlu nam [adlı şəxs] ilə xəfiyyə polis müdiri tərəfindən təhqir edildiyi cəhətcə, firqə [partiya], məzkurun [adı çəkilən şəxsin] şikayətini ümum mülkiyyə müfəttişi idarəsinə xəbər vermişdir.

## AZƏRBAYCANDA

### Gəncədən

### Həbsxanada cinayət

Eylül [sentyabr] ayının 20-də gecə saat 12-də Gəncə vilayət dustaqxanasında məhbus olan Qızılhacılı Məşhədi Qədirə həbsxananın pəncərəsindən silah atılıb ağır surətdə yaralanmışdır. Təfsilat böylədir:

Məzkurun [adı çəkilən şəxsin] saxlandığı bölmənin pəncərəsi çölə tərəf baxdığından, gecə saat 12-də birisi pəncərəyə yanaşıb Məşhədi Qədirdən kibrit istəmişdir. Məzkur kibrit istəyəni qaraqol hesab edib şübhələnməyərək kibriti uzatmışdır. O zaman careh [yaralayan; cani] Məşhədi Qədirə iki qurşun vurmuşdur. Birisi qolunu qırıb, birisi də qarnını dağıtmışdır.

Bunun üzərinə qaraqolda bulunan polis nəfərləri atışmağa başlamışlardır. Atılan qurşunlar yaxındakı ağac yarpaqlarını deşməkdən başqa bir iş görməmişdir. Careh də aradan çıxıb getmişdir.

Məşhədi Qədir bir neçə ay bundan əqdəm [qabaq] hökumətdən qaçdığı halda axırda öz razılığı ilə hökumətə təslim

olmuşdu. Hökumət də onu həbsxanaya göndərib işini təhqiqat üçün məhkəməyə vermişdi.

Əhali arasında deyirlər ki, Ədliyyə Nəzarəti məzkuru zəmanətlə buraxması üçün müddəiyi-ümumiyə [prokurora] əmr vermişdir, fəqət nəticəsi görülməmişdir. Dövlət həbsxanasının oyuncaq olmasına, əlbəttə, hökumət razı olmayıb bu məsələni gözəlcə və ciddi surətdə təhqiq edib əlaqədar olanlardan hesab sormalıdır. Məşhədi Qədir hələ ölməmişdir.

**Nəbiağalıda**

Eylül ayının 19-da Gəncə həvalisində [yaxınlığında] Nəbiağalıda xüsusi ədavət üzərinə kəndlilərin arasında atışma olmuşdur. Orada da bir neçə ölən və yaralanan vardır.

**Topalhəsənlidə**

Yenə söz üstündə Topalhəsənlidə atışma olmuşdur. Atışma əsnasında bir uşaq ölüb, üç arvad yaralanmışdır. Müqəssirlərin tutulması üçün hökumət binagüzarlıq etmişdir [sərəncam vermişdir] deyirlər.

**Kurslar**

Maarif Nəzarəti tərəfindən Gəncədə məmurlar üçün açılan kurslar müvəffəqiyyətli bir surətdə davam etməkdədir. Bu kursda Gəncənin ən müqtədir müəllimləri dərs verdiklərinə görə, hər halda, nəticənin gözəl çıxmasına ümid çoxdur. Qeyri-müslimlər [müsəlman olmayanlar] ciddi bir surətdə türkcə öyrənməyə çalışırlar.

**Müəllimlər İttifaqında**

Gəncə Müəllim və Müəllimələri İttifaqının 20 eylüldəki iclasında Heyəti-Vükəla rəisi Yusifbəyli cənablarının istefasını müzakirə edib Parlaman sədarətinə və hökumət rəyasətinə təəssüfamiz [təəssüf bildirən] teleqraf çəkməyə qərar verdi.

**"Müsavat" idarəsində**

"Müsavat"ın Gəncə şöbəsi xalqın fikri tərbiyəsinə yardım etmək məqsədilə Gəncədə qəzetə çıxarmaq fikrinə düşmüşdür. Bu xüsusda ətraflıca məlumat toplamaq üçün üzvlərdən birisi məmur edilmişdir. Müvəffəqiyyət davamdadır. Gəncəyə qəzetə çox lazımdır.

**Məktəblərdə**

Bura məktəblərində yavaş-yavaş dərslər başlanmaq üzrədir. Əhali məktəbə çocuğunu verməк üçün, adətən, müsabiqə edər kimi məktəblərə gedir. Təəssüf ediləcək bir məsələ varsa, o da Maarif Müfəttişliyinin milliləşməyə olan etinasızlığıdır. Bu da aradan götürülsə, milli maarifimiz xeyli irəliləр. Maarif müfəttişinin ən böyük xidməti builki yay kurslarında görüldü. Həmi özünə, həm də bir neçə müəllim və müəllimələrə gün ağladı. Bu xüsusda ona duaçı çoxdur. Allah xeyrə səbəb olanların evini abad eyləsin.

*Əlif. C.*

## ELANLAR

**Xəzər dənizində posta, sərnişin və yük gəmilərinin hərəkatı**

*Bakı-Ənzəli*

15-ci körpüdən səşənbə [çərşənbə axşamı], cümə və bazar günləri saat 4-də.

*Bakı-Tazəşəhər (Krasnovodsk)*

15-ci körpüdən düşənbə [bazar ertəsi], çaharşənbə və cümə günləri saat 5-də.

*Bakı-Salyan*

19-cu körpüdən bazar, səşənbə, çaharşənbə və cümə günləri saat 4-də.

*Bakı-Ənzəli-Şahsavar-Məşhədsər-Bəndər Gəz və geri*

17-ci körpüdən çaharşənbə günü saat 4-də.

*Bakı-Həsənqulı-Bəndər Gəz-Məşhədsər və geri*

17-ci körpüdən səşənbə günü saat 4-də.

*Petrovsk-Fort-Aleksandrovsk-Quryev və geri*

Paroxodlar Petrovskdan pəncşənbə [cümə axşamı] günləri saat 4-də çıxırlar.

*Bakı-Lənkəran-Astara*

17-ci körpüdən düşənbə, səşənbə və şənbə günü saat 4-də.

*Bakı-Petrovsk*

15, 24 və 25-ci körpülərdən səşənbə, pəncşənbə və şənbə günləri saat 4-də.

*T-178*

**Xüsusi müsəlman təvəllüdxanası Gövhər xanım Qazızadə**

Vəzi-həml edənlər hər bir vaxt, gələn xəstələr isə hər gün səhər saat 10-dan 2-yə kimi qəbul edilirlər. Təvəllüdxanada əməliyyati-cərrahiyyə (operasiya) icra edilib, doktor Tsentner konsultasiya yapır. Feldşeritsa-mama Vasserman çiçək döyür, yara bağlayır və iynə vurur. Adres: Armyanski küçə nömrə 13. Telefon nömrə 58-39.

*T-321*

**Diş həkimi S. İ. Kobılnitskaya**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişlərə müalicə edir, kauçuk və qızıl üzərində dişlər qayırır. Vorontsovski, nömrə 12, Poçtovı küçənin küncündə. Telefon 22-17.

*9026*

**Doktor Əliheydər Allahverdiyev**

Naxoşları qəbul etməyə başlamışdır. Hər gün səhər saat 8-dən 9-adək, axşam saat 4-dən 7-yədək. İçəri şəhər Bolşoy Minaretski küçə, nömrə 1. Bağın qarşısında. Telefon nömrə 36-21.

*9051*

**Doktor Hacı Fətulla Ağaəlizadə**

Daxiliyyə və canda olan mərəzlərə və həmçinin uşaqlara məxsus azarlara müalicə edir. Mərizləri [xəstələri] hər gün səhər saat 7-dən 10-adək və axşam saat 4-dən 7-yədək qəbul edir. Adres: Şamaxı küçəsində 14 nömrəli evdə. Telefon 19-27.

*9016*

**Doktor M. İ. Lurye**

Əmrazi-zöhrəviyyə və daxili naxoşluqları qəbul edir. 914 və 606 müalicəsi. Qəbul edir hər gün səhər saat 8-1-ədək; axşam saat 4-7-yədək. Ünvan: Vorontsovski küçə, nömrə 45, Bandarnının küncündə, yolu Bandarnıdan, nömrə 8, 3-cü mərtəbə. Telefon: 17-06 və 52-36.

*7406*

**Petroqraddan gəlmiş doktor İshaq Avetisoviç Atayans (professor Mixaylovun müavini)**

Mamalıq, qadın və urologiya naxoşluğuna mübtəla olanları qəbul edir. (Bövl [idrar] yolu azarına, köhnə və təzə süzənəyə müalicə edir.) Bövl yolunu elektrik aləti ilə müayinə edir. Hər gün saat 3-dən 6-ya kimi. Çaharşənbə günləri fəqirləri pulsuz qəbul edir.

Ünvan: Telefonnı küçə, nömrə 6.

*7444*

**Doktor Mustafa bəy Hacıqasımov**

Mamalıq və qadın naxoşluqlarını qəbul edir. Hər gün cümə günlərindən başqa saat 4-dən 6-a qədər. Vorontsovski nömrə 17. Kabinə telefonu 34-78.

*9032*

**Doktor**
**Nikolay Mixayloviç Mdivani**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Daxili naxoşluqlar. Qəbul edir hər gün səhər saat 8-10-dək, axşam saat 5-7-yədək.

Ünvan: Vorontsovski 15, Qubernskinin küncündə. Telefon 6-78.

*9047*

**Diş həkimi S. M. Hamburq**

Təzə işlər, qızıl, kauçuk, platina üzərində dişlər qayırılır. Qəbul olunur saat 9-dan 2-yədək, 4-dən 6-yadək. Nikolayevski caddə 21, Parlaman qarşısında. Telefon 5-96.

*9056*

**Diş həkimi Viraxobskaya**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Kauçuk və qızıl üzərində dişlər qayırır. Voronsovski, nömrə 21. Gimnaziçeskinin küncündə.

*9022*

**Berlin Darülfünunu doktoru**
**N. Melkumyan[s]**

Daxili, zöhrəvi, sifilis, "606" və "914" müalicələrini qəbul edir hər gün səhər saat 8-dən 12-yədək, axşam saat 4-dən 7-yədək.

Ünvan: Voronsovski küçə, nömrə 9-11. Kolyubakinski küçənin küncündə. Telefon nömrə 34-34.

**Diş həkimi R. M. Altman**

Gəlib və qəbul edir naxoşları gündüz saat 8 - 2-yədək, axşam saat 4 - 7-yədək. Müsəlman xanımları üçün əlahiddə qəbul olunan otaq. Adres: Şamaxinka, ev nömrə 20. Aptekin qarşısında.

*11417*

**Berlin Darülfünunu doktoru**
**S. İ. Kopelioviç**

Daxiliyyə və əsəbiyyə naxoşluqları. Qəbul edir səhər saat 10-dan 1-ədək, axşam saat 5-dən 7-yədək. Elektrik müalicəsi, 606 və 914 müalicəsi və qeyriləri.

Adres: Vorontsovski küçə nömrə 17, 2-ci mərtəbə. Telefon nömrə 50-28 və 93.

*4051*

**Diş həkimi B. L. Levin**

Gəlib naxoşları qəbul etməyə başlamışdır. Dişləri ağrısız çəkir. Kabinədə diş çıxığı laboratoriyası vardır. Qızıl ənglər, qızıl köklər, kauçuk işləri. Qəbul edir səhər saat 9-dan 1-ə dək, axşam saat 4-dən 8-ə dək. Adres: Sisyanovski, nömrə 7, Qubernskinin küncündə.

*9090*

**Elan**

Bununla elan olunur ki, Lənkəran qəzasında və Muğanda taxıl almaq və qeyri yerlərə aparmaq qadağandır. Bu rayonlarda taxıl almaq ancaq Ticarət və Sənaye və Hərbi nəzarətlərin ixtiyarındadır.

*Ticarət, Sənaye və Ərzaq naziri:*
*[Ağa] Əminov.*
*T-274*

Qusarda olan Birinci Tatarski süvari alayı üçün aşağıdakı yazılan şeylər torqa [hərraca] qoyulur:

Ət, piy, inək yağı, kartof, düyü, kələm, ot, saman, arpa və un. Torq başlanacaq alay idarəsində, oktyabrın 18-də 1919-cu ildə gündüz saat 11-də. Torq olacaq həm şifahi və həm də təhrirən [yazılı] örtülü paketlərdə. Xahiş edənlər qabaqca 4000 nağd pul zaloq verməlidirlər. Torq şərtlərini saat 9-dan 1-əcən alay idarəsində bilmək olar. Adlanan şeyləri tək-tək də torqa gətirmək olar. Onda zaloq ümumi məbləğdən 10 faiz verməк olar.

*Alay komandanı*
*T-273*

***Müdir:***
***Hacıbəyli Üzeyir***





## QEYD VƏ ŞƏRHLƏR

**Qismi-rəsmi**

səh. 28. "3945 nömrəli təmiminə görə": qəzetdə "təmiminə" yerinə "təliminə" getmişdir.

**Mühüm məsələ**

səh. 29. "patriçlər": (patrisilər) Qədim Romada hakim sinfi əmələ gətirən zadəganlar zümrəsi.

"plebeylər": Qədim Romada sadə xalqı əmələ gətirən azad əhali.

**Azərbaycan Məclisi-Məbusanında**

səh. 31. "Aleksandrovski Müəllimlər İnstitutu": Tiflisdə fəaliyyət göstərmiş pedaqoji institut.

səh. 32. "Bu gün maddə qalarsa, hürriyyəti pozmuş olarız.": güman ki, belə olmalı idi: "Bu kimi maddə qalarsa, hürriyyəti pozmuş olarız."

**Teleqraf xəbərləri**

səh. 34. "Yekaterinodar: Rusiyada indiki Krasnodar şəhəri.

**Qəzetələrdən**

səh. 35. "Avamlar Kamerası": ikipalatalı İngiltərə Parlamentinin aşağı palatası olan İcmalar Palatası nəzərdə tutulur.

səh. 36. "Voyenno-qruzinski yol": Hərbi Gürcüstan yolu, Vladiqafqaz və Tiflis şəhərlərini birləşdirən yol.

**Türkiyədə**

səh. 36. "Jurnal de Deba" (yaxud "Jurnal de Deba Politik e Literer") [Journal des Débats Politiques et Littéraires]: 1789-1944-cü illərdə Parisdə fransız dilində nəşr edilən gündəlik qəzet.

səh. 37. "Sədayi-millət": 1919-cu ilin martından 1920-ci ilin iyuluna qədər Batumda nəşr edilmiş qəzet.

**Yeni hürufat məsələsi**

səh. 42. "Gələcək": 1918-ci ildə Tiflisdə Azərbaycan dilində nəşr edilmiş qəzet; "Hümmət" partiyasının orqanı idi.

**Bakı xəbərləri**

səh. 43. "Petrovsk": Dağıstanda, indiki Mahaçqala şəhərinin köhnə adı.

**Azərbaycan Dövlət Bankasının rəsmi-güşadı**

səh. 45. "Utlubul-elmə minəl-məhdi iləl-ləhdi": "Elmi beşikdən məzara qədər tələb edin." (Hədis)

**Azərbaycanda**

səh. 48. "Nəbiağalı": indiki Samux şəhəri.